<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td colspan="2">EDU 408 - Ədəbiyyatın tədrisi metodikası<br>3 kredit 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td colspan="2">Dillər və ədəbiyyatlar</td></tr>
<tr><td>Proqram (bakalavriat, magistr)</td><td colspan="2">Bakalavriat</td></tr>
<tr><td>Tədris semestri</td><td colspan="2">2024/2025-ci tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td colspan="2">Ülvi Babasoy</td></tr>
<tr><td>E-mail:</td><td colspan="2">Ulvi.babasoy@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td colspan="2"></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td colspan="2"></td></tr>
<tr><td>Məsləhət saatları</td><td colspan="2">Cümə, 12:00</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="3">EDU 101, EDU302</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="3">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="3">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="3">Əsas ədəbiyyatlar:<br>1. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2023.<br>2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2014.<br>3. Hüseynova G. Kurikulum təliminə praktiki baxış. Bakı, 2019<br>Əlavə ədəbiyyat:<br>4. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009.<br>5. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı, 2013.<br>6. Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı, 1992.<br>7. Veysova Z. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.<br>İstifadə oluna biləcək digər mənbələr:<br>1. www.edu.gov.az<br>2. http://www.kurikulum.az<br>3. https://yusif.az/main/wp-content/uploads/2020/10/Emil_Tagizade-Kurikulum.pdf<br>4. https://dergipark.org.tr/tr/download/article-file/762745<br>5. https://iksadyayinevi.com/wp-content/uploads/2022/11/%C6%8FD%C6%8FBIYYATIN-T%C6%8FDRISI-METODIKASI.pdf<br>6. https://www.arti.edu.az/nodupload/editor/files/2%20%C6%8Fd%C9%99biyyat-kurikulum.pdf</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td>Təqdimatlar</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Fəallıq</td><td></td><td>5</td></tr>
<tr><td>Açıq dərs layihəsi tapşırığı</td><td></td><td>10</td></tr>
<tr><td>Video dərs layihəsi tapşırığı</td><td></td><td>10</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Fənn vasitəsilə orta məktəbdə ədəbiyyat fənninin tədrisi metodikası ilə bağlı müasir yanaşmalar təhsilalanların nəzərinə çatdırılır. Ədəbiyyat üzrə məktəb proqramları (kurikulumları) üzrə</td></tr>
</table>

| | |
|---|---|
| | tələbələrin praktik vərdişlər qazanmalarına çalışılır. Burada əsas məqsəd gələcək müəllimləri şagirdlərdə ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq və yazılı nitq mədəniyyətini formalaşdırılması üsul və texnikaları ilə tanış etmək, onlarda ünsiyyət qurma, təhlil etmə, sintez etmə, dəyərləndirmə və mühakimə etmə kimi yüksək idraki bacarıqlara yiyələnmələrini təmin etməkdir. |
| **Kursun məqsədləri** | Fənnin məqsədi ədəbiyyatın tədrisi metodikasının elmi-nəzəri məsələləri barədə sistemli bilik vermək, qazanılmış biliklərin tətbiqi üzrə zəruri bacarıqlar formalaşdırmaqdır.<br>– məktəb ədəbiyyat kursunun məqsədini, məzmununu, strukturunu və həcmini müəyyənləşdirmək;<br>– təlim materialının siniflər üzrə bölgüsünü, varisliyi müəyyənləşdirmək;<br>– ədəbiyyat təliminin daha səmərəli metod, priyom və vasitələrini əsaslandırmaq;<br>– bilik, bacarıq və vərdişlərin mənimsədilməsi, praktikada uğurla tətbiqi üçün vacib olan şərtləri nəzəri cəhətdən işləyib hazırlamaq. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələr aşağıdakı bilik, bacarıq və vərdişlərə yiyələnməlidir:<br>• Ədəbiyyatın tədrisi metodikası elminin mahiyyətini, nəzəri əsaslarını;<br>• Ədəbiyyat fənninin məzmununu, öyrənilməsi sistemini;<br>• Ədəbiyyat fənn kurikulumunun məzmununu, strukturunu, standartların mahiyyətini, funksiyalarını;<br>• Yeni təlim texnologiyalarının mahiyyətini;<br>• Ədəbiyyat dərslərinin tiplərini, növlərini, variantlarını;<br>• İcmal materiallarının öyrədilməsi yollarını;<br>• Tərcümeyi-hal materiallarının öyrədilməsi yollarını;<br>• Bədii əsərlərin tədrisi metodikasını;<br>• Ədəbiyyat nəzəriyyəsi anlayışlarının öyrədilməsi yollarını;<br>• Nitq inkişafı üzrə işin təşkili metodikasını;<br>• Ədəbiyyat tədrisinin planlaşdırılmasını;<br>• Şagird nailiyyətlərinin qiymətləndirilməsi qaydalarını;<br>• Ədəbiyyat fənn kurikulumu üzrə qazandığı bilikləri tətbiq etməyi;<br>• Yeni təlim texnologiyaları üzrə qazandığı bilikləri tətbiq etməyi;<br>• Bədii əsərin oxusu, məzmununun mənimsənilməsi üzrə işi təşkil etməyi;<br>• Bədii əsərin təhlili üzrə işi təşkil etməyi;<br>• Nitq inkişafı üzrə müxtəlif növ işləri təşkil etməyi;<br>• Gündəlik və illik planlaşdırma nümunələrini hazırlamağı;<br>• Şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə vasitələr hazırlamağı; |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Fəallığa görə veriləcək bal tələbənin müzakirələrdə iştirakına, mətn təhlilində göstərdiyi fəallığa, semetsr boyu hazırladıqları təqdimatlara(prezentasiya), yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə verilir. Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınır. Üzürsüz buraxılan 2 dərs üçün 1 (bir) bal çıxılır.<br>Fənnin tədrisi zamanı verilən ballara aydınlıq gətirsək;<br>**Aralıq imtahanı - 30(**imtahanda tələbələrin biliyi açıq tipli suallar və test tapşırıqları vasitəsilə yoxlanılır)<br><br>**Fəallıq - 5 (**Fəallığa görə veriləcək **5** bal tələbənin müzakirələrdə iştirakına, praktik tapşııqların yerinə yetirilməsində göstərdiyi fəallığa, əlavə ədəbiyyatlara göstərdiyi marağa, semetsr boyu hazırladıqları təqdimatlara(prezentasiya) görə veriləcəkdir)<br><br>**Açıq dərs layihəsi tapşırığı – 10 bal**<br>*Qeyd:* Tələbələr fərdi şəkildə icmal yazaraq açıq dərs hazırlayır və dərs müddətində ayrılmış vaxtda canlı olaraq təqdim edirlər. |

**Tələblər:**

- İcmal əsasında hazırlanmalı;
- Təlim texnologiya və üsullarının tətbiqinə çalışılmalı;
- Müəllim görkəm və geyiminə əməl etməli;
- Müəyyən edilmiş dərs müddətinə əməl etməli;
- Akademik nitq və davranışa diqqət edilməli;
- “Şagirdlər”lə mübahisə yaradacaq məqamlardan qaçınmalı.

**Tapşırıqlar – 10 bal**
10 və 11-ci sinif Ədəbiyyat dərsliklərinin prqoramı əsasında test tapşırıqları verilir.
**Final imtahanı - 40** imtahanda klassik suallar verilir)
**Davamiyyət - 5** (Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzürsüz buraxılan 2 dərs üçün 1 (bir) bal çıxılacaq)

**İmtahan haqqında:**

1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən əlavə mənbələrə də müraciət etmək lazımdır.
2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.
3. Aralıq və Final imtahanlarının hər ikisində suallar klassik və test tapşırıqları şəklində olacaq.

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **saat** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|---|
| 1. | | Ədəbiyyatın tədrisi metodikası fənninin məqsəd və vəzifələri | 4 | 1,11-25<br>2, s. 9-17 |
| 2. | | Ədəbiyyat fənn kurikulumunun məzmunu, strukturu, standartları və onların funksiyaları | 4 | 1, 25-66<br>2, s. 61-75 |
| 3. | | Ədəbiyyat fənni üzrə məzmun xətləri:<br>-ədəbiyyat və həyat həqiqətləri;<br>- şifahi nitq;<br>- yazılı nitq. | 4 | 1, 66-88<br>2, s. 72-83 |
| 4. | | Fəal (interaktiv” təlimin mahiyyəti, ədəbiyyat dərslərində tətbiqi | 4 | 1, 88-136<br>2, s. 50-60 |
| 5. | | İdrak taksonomiyalarının təlim prosesinə tətbiqinin (Blum, Anderson) əhəmiyyəti, dərsin məqsədinin təyinində və fəaliyyətin təşkilində rolu. Ədəbiyyat dərslərində istifadə edilən təlim metodları-1 | 4 | 1, 136-172<br>2, 116-159 |
| 6. | | İdrak taksonomiyalarının təlim prosesinə tətbiqinin (Blum, Anderson) əhəmiyyəti, dərsin məqsədinin təyinində və fəaliyyətin təşkilində rolu. Ədəbiyyat dərslərində istifadə edilən təlim metodları-2 | 4 | 1, s. 139-172<br>s. 116-159 |

| | | | | |
|---|---|---|---|---|
| 7. | | Ədəbiyyat dərslərində planlaşdırma | 4 | 1, s. 176-184<br>2, s. 84-105 |
| 8. | | ƏTM-nin digər fənlərlə əlaqəsi, digər fənlərin öyrənilməsindəki yeri, fənlərarası və fəndaxili inteqrasiya anlayışı<br>**Aralıq imtahanı** | 4 | 2, s. 310-319 |
| 9. | | Davranışçı və konstruktiv təlim nəzəriyyələrinin xarakterik xüsusiyyətləri, konstruktiv təhsil proqramları, sinif və dərs. ƏTM-də davranışçı və konstruktiv təlim nəzəriyyələrindən istifadə. Müqayisəli tərəfləri. Konstruktiv təlimdə üstün tərəflər. | 4 | 2, s. 1-6 |
| 10. | | Sənətkarın həyatı, yaradıcılıq yolu materiallarının tədrisi | 4 | 1, s.235-259<br>2, s. 271-281 |
| 11. | | Ədəbiyyat nəzəriyyəsinin öyrənilməsi | 4 | 2, s. 258-265 |
| 12. | | Bədii əsərin məzmununun öyrənilməsi | 4 | 1, 2, s. 284-187<br>s. 159-180 |
| 13. | | İcmal mövzularının öyrənilməsi | 4 | 1, s. 216-235<br>2, s. 265-271 |
| 14. | | Ədəbiyyat dərslərində nitq inkişafı üzrə işlər | 4 | 1, s. 303-305<br>2, s. 281-310 |
| 15. | | Qiymətləndirmə meyarlarının və qiymətləndirmə vasitələrinin hazırlanması<br>Şagird nailiyyətlərinin qiymətləndirilməsi, konstruktiv qiymətləndirmənin növləri | 4 | 2, s. 309-318<br>2, s. 325-333 |
| | | **Final imtahanı** | | |